

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 aprel 2025-ci il №22 (2931) https://mod.gov.az Qiymәti 30 qәpik


## Prezident İlham Əliyev 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## İkinci Qarabağ müharibəsi təbii olaraq, tarixdə bizim şanlı tariximiz kimi, şanlı səhifəmiz kimi əbədi qalacaq



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.*

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma burada yaradılmış şərait barədə məlumat verib.

Qeyd edək ki, Ağdam rayonunda quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri də Sarıcalı kəndidir.

Kənd Birinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il iyulun 23-də işğal olunmuşdu. İşğal dövründə kənd viran qoyularaq xarabalığa çevrilmişdi, burada evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də vəhşicəsinə məhv edilmişdi. Vətən müharibəsində Ordumuzun şanlı Qələbəsindən sonra üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana qaytarılıb. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə 1024 nəfər əhali yaşayıb.

Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub.

Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub.

Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində yerli icra strukturları üçün inşa olunmuş çoxfunksiyalı inzibati binanın açılışında iştirak ediblər.

Kəndin girişində inşa edilmiş bu binada bir sıra qurumlar fəaliyyət göstərəcək. Bu isə öz növbəsində əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına və vətəndaş məmnunluğunun təmin edilməsinə imkan yaradacaq. Binada müxtəlif iclas və iş otaqlarında işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün bütün şərait mövcuddur.

Qeyd edək ki, kənddə inşa olunmuş bütün qeyri-yaşayış binalarının, o cümlədən inzibati binanın damında günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik ehtiyacları təmin ediləcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində yeni inşa edilmiş fərdi yaşayış evlərində yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, birinci mərhələ üzrə buraya 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır. Artıq 203 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, müasir standartlara uyğun inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi və onların sağlam mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafının təmin edilməsi, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması kimi meyarlara xüsusi diqqət yetiriləcək. Körpələr evi-uşaq bağçasında 5 qrup fəaliyyət göstərəcək.

Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, geniş abadlıq işləri görülüb.

**(Ardı 2-ci səhifədə)**



## “Bu, bizim milli yaddaşımızın bir hissəsidir”

1918-ci il Azərbaycan tarixinin qanlı səhifələrindən biri kimi yaddaşlara həkk olunub. Həmin il Quba və ətraf bölgələrdə minlərlə günahsız insan - qadın, uşaq, qoca bolşevik adı altında quldur erməni dəstələri tərəfindən amansızcasına, vəhşicəsinə qətlə yetirildi. 2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq Quba nın müsəlman əhalisinin soyqırımının əyani sübutu olmuşdur. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" yaradılıb.

Ezamiyyətimiz zamanı "Soyqırımı Memorial Kompleksi"ni ziyarət etdik. Kompleksin direktoru Rəşxəndə Bayramova ilə söhbətləşdik.



**(Ardı 6-cı səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# İkinci Qarabağ müharibəsi təbii olaraq, tarixdə bizim şanlı tariximiz kimi, şanlı səhifəmiz kimi əbədi qalacaq

(Əvvəli 1-ci səhifədə)

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların vətənpərvər, bilikli, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində Azərbaycan dövləti mühüm işlər görür. Bu məsələ işğaldan azad edilmiş ərazilərimizdə də diqqət mərkəzində saxlanılır. Bu bölgələrimizdə bir çox uşaq təhsil-tərbiyə müəssisələrinin yaradılması prosesinin geniş vüsət alması bunu aydın nümayiş etdirir.

* * *

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kənd tam orta məktəbinin binasının açılışında iştirak ediblər.

Bildirilib ki, 14 sinif otağı olan 360 şagird yerlik məktəbdə təhsil prosesinin səmərəli şəkildə həyata keçirilməsi üçün lazımi şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada laboratoriyalar, texnologiya, biologiya və informatika otaqları, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Məktəbin ərazisində idman meydançası inşa olunub. Bu meydançadan şagirdlərlə yanaşı, dərsdənkənar saatlarda kənd əhalisi də istifadə edə biləcək. Ərazidə oyun və istirahət sahələri yaradılıb, yaşıllıqlar salınıb.

Qeyd edək ki, 30 ilə yaxın davam etmiş işğal nəticəsində həmin rayonlardakı təhsil müəssisələri də tamamilə dağıdılıb. İşğaldan azad edilmiş ərazilərdə təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm və ardıcıl işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda da öz əksini tapıb. Yeni məktəb binalarının inşası işğaldan azad olunmuş ərazilərimizə köçən şagirdlərin savadlı və bilikli yetişməsi məsələsinə Azərbaycan dövlətinin nə qədər həssaslıqla yanaşdığını aydın nümayiş etdirir.

* * *

Sonra dövlətimizin başçısı və birinci xanım yeni mənzillərə köçən sakinlərlə görüşüb və onlara evlərin açarlarını təqdim ediblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

**Prezident İlham Əliyev:** Sarıcalıya xoş gəlmisiniz.

**Sakinlər:** Siz də xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev**: Sizi ürəkdən təbrik edirəm.

**Sakinlər**: Çox sağ olun.

**Prezident İlham Əliyev**: İlk növbədə, qarşıdan gələn Ramazan bayramı və Sarıcalı kəndinin bərpası münasibətilə sizi təbrik edirəm. Yəni, bu gün ikiqat bayramdır. Bu bayram ərəfəsində kəndi istifadəyə vermək, keçmiş köçkünlərin sərəncamına vermək xüsusi hadisədir.



Bu yaxınlarda Novruz bayramını qeyd etmişik. Novruz bayramı ərəfəsində Ağdərə rayonunun Həsənriz kəndinin sakinləri ilə görüşmüşdüm, onlara evlərinin açarlarını təqdim etmişdim. Bu gün isə burada - Ağdam rayonunun bərpa edilmiş birinci kəndinin sakinləri ilə görüşmək, əlbəttə ki, böyük xoşbəxtlikdir. Uzun fasilədən sonra siz doğma torpağınıza qayıtmısınız. Burada sizin üçün gözəl şərait yaradılıb.

Mən işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar. Bütün keçmiş köçkünlər üçün gələcəkdə bu cür şərait yaradılacaq. Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Təbii olaraq, Ağdam şəhəri sıfırdan qurulur, yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək.

Ağdam şəhəri də, rayonun bütün kəndləri də mənfur düşmən tərəfindən tamamilə dağıdılmışdı, bir dənə də salamat bina qalmamışdı. Bu, bir daha düşmənin xislətini göstərir, bizə tamamilə əsassız olan düşmənçiliyi göstərir. Təsadüfi deyil ki, bəzi xarici ekspertlər, jurnalistlər Ağdama səfər edərkən öz təəccübünü və hətta hiddətini gizlədə bilmirlər. Çünki uzun illər işğal dövründə xarici vətəndaşlar Ağdam bölgəsinə, Ağdam şəhərinə, şəhərdən qalan o yerlərə gələ bilmirdilər. İşğala son qoyulandan sonra həm Azərbaycan vətəndaşları, həm xarici qonaqlar gəlməyə başladılar və gördülər ki, biz hansı düşmənlə üz-üzə idik. Yəni, işğal dövründə şəhər tamamilə söküldü, yerlə-yeksan edildi və Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. Amma fərq ondadır ki, Xirosima atom bombası nəticəsində viran qoyulmuşdur, Ağdamı isə 30 il ərzində oğrular, talançılar, erməni talançılar sökərək daşlarını da aparıb müxtəlif yerlərdə satırdılar. Yəni, bu, misli görünməmiş vəhşilikdir. Mən bunu dəfələrlə demişdim, erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir. Biz Ağdamı yenidən qururuq və quracağıq. İndi genişmiqyaslı quruculuq işləri aparılır. İşğaldan sonrakı dövrdə bir çox önəmli infrastruktur obyekti istifadəyə verilib, ilk növbədə, yollar. Ağdam-Bərdə yolu yenidən quruldu. Heç sovet dövründə bu gözəllikdə yol olmamışdır. Ağdam-Xankəndi yolu inşa edilir. Bu da Bərdə-Ağdam yolu kimi dördzolaqlı olacaq. Dəmir yolu çəkilir, yəqin ki, bu il istifadəyə veriləcək. Yəni, Ağdama dəmir yolu ilə rahat gəlmək mümkün olacaq. Vağzal kompleksi inşa edilir. Ağdam məscidi bərpa edilmişdir. Mənfur düşmən bütün müsəlmanları, dünya müsəlmanlarını təhqir etmək üçün orada heyvan saxlayırdı. Birinci bərpa olunan bina Ağdam məscidi olmuşdur. Muğam Mərkəzi inşa edilir. "İmarət" Kompleksi bərpa edildi. Natəvanın qəbri bərpa olundu, düşmən tərəfindən dağıdılmış abidəsinin eynisi yenidən tikildi. Xaçınçay su anbarı yenidən quruldu. Düşmən onu da qurutmuşdu. Məktəb binası inşa edilir, xəstəxana tikilir, böyük sənaye kompleksi fəaliyyət göstərir. Artıq bir neçə müəssisə orada fəaliyyət göstərir və bu, Qarabağ, Şərqi Zəngəzur bölgəsinin ən böyük sənaye kompleksi olacaq. Təbii ki, yaşayış evləri, bir neçə yaşayış kompleksi inşa edilir, bu il istifadəyə veriləcək.

Bununla bərabər, bölgənin turizm imkanları nəzərə alınaraq iki mehmanxana artıq fəaliyyətə başlayıb və həm Ağdam, həm Füzuli, həm ətraf bölgələrə xidmət göstərəcək. Bax, biz belə şəhər qururuq. Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq.

Bütün bunlar öz gücümüzə həll olunan layihələrdir, məsələlərdir. Azərbaycan dövləti bu gün bu işləri görməyə qadirdir. Mən təkcə Ağdam rayonunda gedən işləri sadaladım. Amma əgər bütövlükdə azad edilmiş torpaqlarda gedən işləri götürsək, qısa müddət ərzində bu qədər bərpa işləri heç bir ölkədə heç vaxt görülməmişdir.

İkinci Qarabağ müharibəsi təbii olaraq, tarixdə bizim şanlı tariximiz kimi, şanlı səhifəmiz kimi əbədi qalacaq. Bildiyiniz kimi, müharibə zamanı Ağdam istiqamətində fəal hərbi əməliyyatlar keçirilmirdi, çünki düşmən güclü istehkamlar qurmuşdu və hər tərəf minalanmışdı. Ona görə biz Ağdam istiqamətində artıq Hadrut, Cəbrayıl, Füzuli, Şuşa azad olunandan sonra hərəkət etməyə başlamışdıq və faktiki olaraq, düşmənin qüvvələri mühasirədə qalmışdı. Azərbaycan yenə də humanistlik göstərdi və düşmənə şans verdi ki, öz xoşu ilə bu torpaqlardan çıxsın. Əks təqdirdə, bu bölgədə mühasirədə qalmış 10, bəlkə də 15 minlik Ermənistan ordusunun kontingenti tamamilə məhv ediləcəkdi. Yəni, yenə də Azərbaycan dövləti humanistlik göstərdi o ünsürlərə ki, onlar buna layiq deyillər. Çünki bizə qarşı heç bir humanistlik göstərilməmişdi. Bizə qarşı soyqırımı törədilmişdi. Xalqımız böyük əzab-əziyyətlərə məruz qalmışdır. Bizim şəhərlərimiz viran qoyuldu, kəndlərimiz, şəhərlərimiz dağıdıldı. Körpələrimiz, qadınlarımız vəhşi düşmən tərəfindən qətlə yetirildi. Amma mən müharibə zamanı demişdim, biz qisasımızı döyüş meydanında alırıq və almışıq.

İkinci Qarabağ müharibəsi nəticəsində Ağdam şəhəri və o vaxt işğal altında olan kəndlər bir güllə atılmadan geri qaytarıldı. Ağdamla bərabər, Laçın və Kəlbəcər rayonları da. Biz onsuz da bu torpaqları azad edəcəkdik, ancaq müharibə davam etsəydi, çoxlu itkilər olacaqdı. Biz ona görə müharibəni vaxtında dayandırdıq, ancaq öz siyasətimizdən bir addım geri atmadıq. Ondan üç il sonra tam nəzarəti ələ götürdük, suverenliyi, ərazi bütövlüyümüzü bərpa etdik və bu gün separatizmin kökü kəsildi. Bu gün burada insanlar rahat yaşayacaqlar, heç kimdən qorxmadan, ləyaqətlə yaşayacaqlar. Əminəm ki, xoşbəxt yaşayacaqlar. Çünki artıq həm torpaqlar geri qaytarıldı, eyni zamanda, xalqımızın milli ləyaqəti bərpa edildi. Ermənistan 30 il ərzində hər vəchlə çalışırdı ki, bir santimetr torpaq da bizə qaytarılmasın. Onun arxasında duran xarici qüvvələr də onlarla həmrəy idi, əlbir idi. Amma onlar bir şeyi nəzərə almamışdılar, o da Azərbaycan dövlətinin gücü, iradəsi, cəsarəti və Ordumuzun qəhrəmanlığıdır. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah Ordumuzun, Silahlı Qüvvələrimizin şəxsi heyətinin başını həmişə uca eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində bax, bu gün biz burada durmuşuq və bu gün bu gözəl bayram ərəfəsində görüş keçirir.

Bundan sonra bərpa işləri davam edəcək. Sarıcalı kəndinin, sadəcə olaraq, birinci mərhələsinin inşası başa çatdı. Burada hazırda 200-dən çox ev var. Amma ikinci mərhələ başa çatandan sonra təqribən evlərin sayı 400-ə çatacaq. Yaşamaq üçün bütün şərait var. Gözəl, yaraşıqlı evlər, elektrik, su, qaz, istilik, gözəl məktəb, uşaq bağçası, tibb məntəqəsi, idman meydançası, ictimai xidmət yerləri, hətta bazar kompleksi də var. Evlərin həyətyanı sahəsi də kifayət qədər böyükdür - 12 sot. Eyni zamanda, ətraf ərazilərə su veriləndən sonra o torpaqlarda da əkin-biçin işləri aparmaq mümkün olacaq. Sərsəng su anbarı və Suqovuşan su anbarı bu imkanı bizə yaradacaq. Sadəcə olaraq, vaxtilə inşa edilmiş kanallar bərpa edilməlidir. Bu istiqamətdə də iş gedir. Yaxşı bilirsiniz, həm Sərsəng, həm Suqovuşan su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmişdi ki, o cümlədən Ağdam və bir neçə ətraf rayon suvarma suyu ilə təmin olunsun. İşğal dövründə düşmən suyumuzu da kəsmişdi. İndi biz öz su resurslarımıza da sahib olduq. Xaçınçay su anbarı artıq bərpa edilib və Suqovuşandan gələn kanal vasitəsilə Ağdamın bütün ərazisi və qonşu rayonların əraziləri suvarılacaq. Bu gün təqribən 100 min hektar suvarılmayan torpağa su gətiriləcək.

Ona görə Ağdam rayonunda yaşayacaq vətəndaşlar buna hazır olmalıdırlar. Burada işlə təmin etmək üçün lazımi addımlar atılır, eyni zamanda, kənd təsərrüfatı da sahibkarlar tərəfindən inkişaf etdirilməlidir.

Bir daha sizi ürəkdən təbrik edirəm, cansağlığı arzulayıram. Xoşbəxt yaşayın.

**Sakinlər**: Çox sağ olun.

* * *

Sonra açarların təqdim edilməsi mərasimi olub və xatirə şəkilləri çəkdirilib.

* * *

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənd sakinləri ilə söhbət ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, iaşə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olublar.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# İkinci Qarabağ müharibəsi təbii olaraq, tarixdə bizim şanlı tariximiz kimi, şanlı səhifəmiz kimi əbədi qalacaq

(Əvvəli 2-ci səhifədə)

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak ediblər.

Qeyd olunub ki, məsciddə bərpa işləri Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə aparılıb. Bərpa işlərinə 2023-cü ildən başlanılıb.

Ötən müddət ərzində məscidin həyatinin deformasiyaya uğrayan əksər döşəmə daşları sökülərək möhkəmləndirilib və fərş döşəmə bərpa edilib. Dəmir giriş qapısı və hasar üzərindəki məhəccərlər Qarabağ memarlığına xas bəzəklərlə hazırlanıb.

Yerli daşdan tikilmiş məscidin fasadının dağılmış hissələri tam bərpa olunub, təhlükəli vəziyyətə düşmüş atma və guşə daşları çıxarılaraq yenidən restavrasiya edilib. Mərtəbələrarası taxta örtük konstruksiyası quraşdırıldıqdan sonra yaranan eyvan şüşəbəndlə tamamlanıb.

Məscid giriş hissə, ibadət zalı və köməkçi otaqlardan ibarətdir. Şuşanın digər məscidlərindən fərqli olaraq, burada giriş sağ tərəfdən daş pillələrlə təmin edilib. Açıq tamburdan otağa və ibadət zalına keçid var.

Məscidin inşasında istifadə olunan daşlar bərpa edilib, mehrab yenidən qurularaq üzərinə "Qurani-Kərim"dən ayələr və naxışlar işlənib.



Çöl Qala məscidinin yaxınlığında yerləşən və XIX əsrə aid olan Çöl Qala bulağı da bərpa edilib. Dördbucaqlı formada olan bulaq yaxınlıqdakı məscidlərin üslubunda inşa edilib. Bərpa prosesində bulağın orijinal memarlıq üslubu qorunub, strukturu möhkəmləndirilib və əvvəlki görünüşü özünə qaytarılıb.

Qeyd edək ki, Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Bu tarixi abidə XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib.

Məscid və bulaq Şuşa şəhərinin işğalından sonra ermənilər tərəfindən dağıdılmış və talan edilmişdi.

* * *

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində aparılan tikinti işləri və iaşə obyektlərində yaradılan şəraitlə də tanış olublar.

Məlumat verilib ki, bu küçədə ümumilikdə müxtəlif təyinatlı 10 binanın inşası aparılır. Onların arasında mehmanxana, ofislər, iaşə obyektləri, Şuşa Qoruq İdarəsinin binası da var. Tikinti işləri yüksək keyfiyyətlə və şəhərin ümumi görünüşünə uyğun həyata keçirilir. Bu binaların inşası tarixi Azərbaycan şəhəri olan Şuşanın inkişafı istiqamətində atılan addımların bir hissəsidir.

* * *

Sonra dövlətimizin başçısı və birinci xanım Şuşa Müalicə-Sağlamlıq Mərkəzində aparılan tikinti işləri ilə tanış olublar.

Xatırladaq ki, təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan bu tibb ocağı 90 çarpayılıqdır və 6 korpusdan ibarətdir.

Stasionar xidmət sahəsində terapiya, pediatriya, cərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Mərkəzin Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən avadanlıqla təchiz olunacaq.

Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunub.

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə Azərbaycan dövləti tərəfindən digər sahələrlə yanaşı, tibb xidmətlərinin müasir səviyyədə təşkili üçün də genişmiqyaslı işlər həyata keçirilir. Şuşada bu cür tibb ocağının yaradılması bunun əyani göstəricisidir. Şuşa Müalicə Sağlamlıq Mərkəzi şəhərdə yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihələrindən biridir.

* * *

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yeni Şuşa Məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

Qeyd edək ki, bu məscidin təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulub. Məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi göz oxşayacaq. Onun memarlıq həlli rəmzi xarakter daşıyır. Belə ki, Prezident İlham Əliyevin tapşırığı ilə məscidin forması 8 rəqəmini əks etdirəcək və bu, noyabrın 8-də Şuşanın işğalçılardan azad olunmasını, Zəfər Gününü simvolizə edəcək.

Məscidin iki minarəsi isə 11 rəqəmini əks etdirəcək. Bu, Şuşanın və Qarabağın işğaldan on birinci ayda azad edilməsinin rəmzidir. Minarələrin hündürlüyü 72 metr olacaq. Şuşanın yuxarı hissəsində inşa edilən məscid həm də şəhərin ən uca yerində olacaq.

Məscidin layihələndirilməsini azərbaycanlı və italiyalı memarlar birgə həyata keçiriblər. Bu ibadət ocağının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək.

Hazırda ərazidə dəmir beton, metal konstruksiya və elektrik işləri davam etdirilir.

**AZƏRTAC-ın materialları əsasında**

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu Ramazan ayı insanları gözəl niyyətlər və savab əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq və bərabərlik yoluna dəvət edir. Bu ayda müsəlmanlar oruc tutmaqla Allah və din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi kamilliyə ucalmaq fürsəti qazanırlar.

Orucluq mərasimləri bütün İslam aləmində olduğu kimi, Azərbaycanda da hər il böyük fərəh və məmnunluq hissi ilə keçirilir. Ölkəmizdə milli-mənəvi həmrəyliyin, humanizmin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən Ramazan ayında dövlətimizin rifahı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad olunur. İnanıram ki, insanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran mübarək Ramazan günlərində dua və dilədikləriniz, saf niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

Əziz bacı və qardaşlarım!

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza Ramazan təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Allah orucunuzu və dualarınızı qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 mart 2025-ci il

## Azərbaycan Respublikasının müdafiə nazirinin Ramazan bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik, bərabərlik rəmzi olan müqəddəs Ramazan bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, şərəfli xidmətinizdə uğurlar arzulayıram.

İslami dəyərlərin qorunduğu ölkəmizdə hər il dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Ramazan bayramı insanlar arasında bərabərliyi, birliyi daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığın, xeyirxahlıq və humanizm duyğularının təntənəsinin özündə təcəssüm etdirir.

Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə dövlət quruculuğu siyasətində azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlərimiz yüksək tutulub, adət və ənənələrimizin qorunub saxlanması reallığa çevrilib. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, atılan qətiyyətli addımlar sayəsində, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan çoxlu sayda böyük layihələr nəticəsində dövlətimizin iqtisadi dayaqları möhkəmlənib, milli-mənəvi dəyərlərimizin beynəlxalq miqyasda təbliği həyata keçirilib, Azərbaycan demokratik dövlət quruculuğu prosesində böyük nailiyyətlər əldə edib, dəyərlərimizin dünyada daha yaxından tanınması təmin olunub.

Respublikamızın müdafiə qüdrətinin artırılması istiqamətində qazanılan böyük nailiyyətlər, eyni zamanda, orduda aparılan genişmiqyaslı islahatlar, sosial infrastrukturun müasirləşdirilməsi, hərbi qulluqçuların xidmət şəraitinin yaxşılaşdırılması, keçirilən təlimlər, düşmənin genişmiqyaslı təxribatlarına qarşı aparılan uğurlu əks-hücum əməliyyatı şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirmiş və nəticədə 2020-ci il tariximizə Zəfər ili kimi yazılmışdır. 2023-cü il 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycan Respublikasının konstitusiya quruluşu tam bərpa edilmişdir.

Dövlət müstəqilliyinin əsas atributlarından biri sayılan üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı işğaldan azad edilmiş ərazilərimizdə qalib ordumuz Vətənimizin müdafiəsində ayıq-sayıq dayanmaqla bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, Böyük Qayıdışa layiqli töhfələr verir.

Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımızın xatirəsini hər zaman olduğu kimi, Ramazan bayramı günlərində də dərin hörmət və ehtiramla yad edirik. Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ali diqqət və qayğısı sayəsində şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğılarının həlli istiqamətində mühüm addımlar atılır. Şəhid valideynlərini, onların ailə üzvlərini, Vətən uğrunda sağlamlıqlarını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, bu müqəddəs Ramazan bayramı gəlişi ilə xalqımıza firavanlıq, xoşbəxtlik və süfrələrimizə bol ruzi-bərəkət gətirsin.

Bir daha hər birinizi Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, Vətənimiz müstəqil Azərbaycan naminə şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

# Azərbaycan Ordusunda Ramazan bayramı qeyd edilib







*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunun qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində Ramazan bayramı münasibətilə silsilə tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, bayram tədbirlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrlərin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Tədbirlərdə çıxış edənlər Azərbaycan Respublikasının müdafiə nazirinin Ramazan bayramı münasibətilə təbrikini şəxsi heyətə çatdırıb. Xalqımızın taleyinin ən çətin dönəmlərində belə öz tarixi köklərini, milli-mədəni dəyərlərini, adət-ənənələrini qoruyub saxlamasından, dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik, bərabərlik rəmzi olan Ramazan bayramının ölkəmizin bütün suveren ərazisində təntənə ilə qeyd olunmasından danışıblar.

Bayram tədbirlərində təqdim olunan konsert proqramları şəxsi heyət tərəfindən böyük maraqla qarşılanıb. Hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu təltif edilib.

Silsilə tədbirlər çərçivəsində şəxsi heyət tərəfindən şəhidlərimizin məzarları ziyarət olunub, hərbi qulluqçular şəhid və yaralıların ailələrinə baş çəkərək onların qayğıları ilə maraqlanıb, bayram sovqatları təqdim ediblər.

# Mövqelərimiz atəşə tutulub

**Ermənistan silahlı qüvvələri növbəti dəfə təxribatlara əl atıb**

Martın 29-u axşam və 30-u səhər saatlarında Ermənistan silahlı qüvvələri pilotsuz uçuş aparatı və dronlar vasitəsilə Qerenzur yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri ilə üzbəüz istiqamətdəki Azərbaycan Ordusunun mövqeləri üzərində 3 dəfə kəşfiyyat xarakterli uçuş həyata keçirməyə cəhd edib.

Müdafiə Nazirliyi xəbər verir ki, bölmələrimizin sayıqlığı nəticəsində Ermənistanın təxribatçı cəhdlərinin qarşısı alınmışdır.

Eyni zamanda, Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus, Basarkeçər və Çəmbərək rayonları istiqamətlərindən Azərbaycan Ordusunun mövqelərini bir neçə dəfə atıcı silahlardan fasilələrlə atəşə tutub.

**Ermənistan tərəfinin təxribatçı cəhdlərinin qarşısı alınıb**

Martın 30-u saat 21:25 radələrində Ermənistan silahlı qüvvələri pilotsuz uçuş aparatı və dronlar vasitəsilə Qerenzur yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri ilə üzbəüz istiqamətdəki Azərbaycan Ordusunun mövqeləri üzərində yenidən kəşfiyyat xarakterli uçuşlar həyata keçirməyə cəhd edib.

Bölmələrimizin sayıqlığı nəticəsində Ermənistanın təxribatçı cəhdlərin qarşısı alınmışdır.

Bundan başqa, martın 30-u saat 22:30-dan 31-i saat 04:35-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus, Basarkeçər və Çəmbərək rayonları istiqamətlərindən Azərbaycan Ordusunun mövqelərini bir neçə dəfə atıcı silahlardan fasilələrlə atəşə tutub.

* * *

Martın 31-i saat 17:00-dan aprelin 1-i saat 04:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər və Gorus rayonlarının Zərkənd, Zod, Aşağı Şorca, Yuxarı Şorca, İstisu, Xanazax və Xəznəvar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

# Ermənistan silahlı təxribatlarını dezinformasiya ilə gizlətməyə çalışır

Martın 31-də saat 11:10 radələrində Ermənistan silahlı qüvvələrinin Qarakilsə rayonunun Bazarçay yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun mövqeləri atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyi xəbər verir ki, son günlər mütəmadi olaraq Azərbaycan Ordusunun bölmələrini atəşə tutan, eləcə də mövqelərimiz üzərində pilotsuz uçuş aparatları və dronlarla kəşfiyyat xarakterli uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan tərəfi təxribatlarını ört-basdır etmək məqsədilə dezinformasiyalar yayır.

Bildiririk ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Xanazax yaşayış məntəqəsinin atəşə tutulması barədə Ermənistanın yaydığı məlumatın heç bir real əsası yoxdur, tamamilə yalandır və dezinformasiya xarakteri daşıyır.

Qarşı tərəf bu cür yalan və həqiqətə uyğun olmayan məlumatlar yaymaqla beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmağa və təxribatlarını gizlətməyə cəhd edir.

# Xalqımızın qan yaddaşı



*Azərbaycan xalqının tarixində ən dəhşətli və faciəvi hadisələrdən biri də 1918-ci ilin 31 mart soyqırımıdır. 1918-ci ilin martında Bakı, Quba, Şamaxı, Ağsu, Kürdəmir, Lənkəran, Salyan, Zəngəzur, Naxçıvan bölgələrində erməni silahlı dəstələri azərbaycanlılara qarşı kütləvi qırğın törətdilər. Bu soyqırımda minlərlə azərbaycanlı amansızlıqla öldürüldü, on minlərlə insan itkin düşdü. Yüzlərlə ev, xalqımızın maddi-mədəniyyət abidələri, tarixi əsrlərə söykənən məscidlərimiz yandırıldı.*

1917-ci ildə Rusiyada baş verən Fevral və Oktyabr inqilabları çar imperiyasının dağılmasına gətirib çıxardı. Bu dövrdə erməni millətçi təşkilatları, xüsusilə Daşnaksütyun partiyası və erməni silahlı qüvvələri Zaqafqaziyada (indiki Cənubi Qafqaz) öz mövqelərini gücləndirdilər. 1918-ci ilin mart-aprel aylarında əsasən ermənilərdən ibarət olan Stepan Şaumyanın rəhbərlik etdiyi qüvvələr tərəfindən azərbaycanlılara qarşı genişmiqyaslı qırğınlar törədildi.

Daşnaksütyun partiyasının birgə həyata keçirdiyi bu soyqırımı nəticəsində yalnız Bakıda 12 minə yaxın azərbaycanlı qətlə yetirildi. Erməni vandalizminin törətdiyi bu kütləvi qırğın bölgələrimizdə də baş verdi. Belə ki, erməni silahlı dəstələri Şamaxı şəhərini mühasirəyə alırdı və dinc əhaliyə divan tuturdular. Şəhərdə yüzlərlə ev yerlə-yeksan edildi. Şamaxı şəhərindən sonra ermənilər Qubada da dinc əhalini kütləvi surətdə qətlə yetirdilər. 2007-ci il aprelin 6-da Qubada tikinti işləri aparılarkən kütləvi məzarlığın aşkar edilməsi erməni terrorizminin və erməni vəhşiliyinin sübutlarından biri idi. Arxeoloq tədqiqatçıların, tarixçi alimlərin qənaətinə görə buradakı insan sümüklərindən aydın olurdu ki, əhali qəddarcasına və işgəncə ilə öldürülmüşdü.

Daşnak ermənilərin - Şaumyanların, Lalayanların, Əmiryanların, Andraniklərin başçılığı altında erməni-bolşevik silahlı dəstələri ölkəmizin müsəlman əhalisinə, o cümlədən digər etnik xalqların nümayəndələrinə qarşı görünməmiş dəhşətli faciələr törətdilər.

Erməni qüvvələri törətdikləri iyrənc əməllərini digər rayonlarımızda da yerinə yetirməkdə davam edirdilər. Onların azərbaycanlılara qarşı qətliamları Cənub bölgəsindən də yan keçmədi. Burada da onlar eyni ssenari üzrə hərəkət edərək insanları qətlə yetirir və kəndləri yandırırdılar.

Bu hadisələr araşdırılaraq nə qədər faktlar toplansa da, bunlar ictimaiyyətdən gizli saxlanılırdı. Lakin 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevin Fərmanı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü kimi elan edilməklə tariximizin bu qaranlıq səhifələrinin üzərinə işıq salındı. Bu Fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən hərtərəfli hüquqi-siyasi qiymət oldu, həm də uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətlər aşkar edildi.

Prezident İlham Əliyev 2009-cu ildə Quba şəhərində 1918-ci il soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında Sərəncam imzaladı. 2013-cü il sentyabrın 18-də isə bu kompleksin açılışı oldu. 2018-ci ildə azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar dövlət başçısı İlham Əliyev tərəfindən tədbirlər planı təsdiq edildi və bu çərçivədə bir sıra beynəlxalq tədbirlər həyata keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və bu faciənin unudulmaması üçün müxtəlif tədbirlər bu gün də davam edir.

**Kifayət ƏLİYEVA**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Şəhidlərimizin xatirəsi yad edilib





*Aprelin 1-də İkinci Şəhidlər xiyabanında 44 günlük Vətən müharibəsi şəhidləri - Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidov və polkovnik-leytenant Sədi Musayevin doğum günləri münasibətilə anım mərasimləri keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimlərdə Müdafiə Nazirliyinin bir qrup zabiti, Qubadlı rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhidlərin ailə üzvləri, döyüş yoldaşları, məktəblilər və digər qonaqlar iştirak ediblər.

Şəhid zabitlərimizin məzarları ziyarət edilib, əklil və gül dəstələri qoyularaq xatirələri ehtiramla yad olunub.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin xatirələri bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər şəhidlərin şərəfli həyat və döyüş yollarından, vətənpərvər zabitlər kimi Vətənə qüsursuz xidmətlərindən, Vətən müharibəsi zamanı göstərdikləri şücaət və igidliklərdən danışıblar.

Hər iki şəhidimizin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



# Belarusda Milli Qəhrəman Anatoliy Davidoviçin xatirəsi anılıb

*Martın 28-də Azərbaycan Respublikasının Belarus Respublikasındakı Səfirliyinin və Silahlı Qüvvələrinin hərbi attaşelik aparatının, həmçinin Belarusun Azərbaycan İcmaları Konqresi beynəlxalq ictimai birliyinin nümayəndələri Birinci Qarabağ müharibəsində Vətənimizin ərazi bütövlüyü uğrunda əvəzsiz qəhrəmanlıqlar göstərərək döyüşmüş Azərbaycanın Milli Qəhrəmanı, Belarus əsilli mayor Davidoviç Anatoliy Nikolayeviçin anadan olmasının 60-cı ildönümü ilə əlaqədar onun məzarını ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.*

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimdə hərbi orkestr tərəfindən hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Tədbir iştirakçıları, həmçinin Milli Qəhrəmanın anası Kima Davidoviçin evini ziyarət edib, onun səhhəti və qayğıları ilə yaxından maraqlanıblar. Milli Qəhrəmanın anası övladının xatirəsinə olan ehtirama, eləcə də göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, A.Davidoviç 1992-ci il iyunun 13-də şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 3 iyul 1992-ci il tarixli Fərmanı ilə mayor Davidoviç Anatoliy Nikolayeviçə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.




# Şəhid kapitan Sənan Kərimovun xatirəsi anılıb

*Milli Müdafiə Universitetinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində Vətən müharibəsi döyüşlərində şəhidlik zirvəsinə yüksələn kapitan Sənan Kərimovun doğum günü münasibətilə anım mərasimi keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, Hərbi liseyin zabit və kursantlarının, şəhidin ailə üzvləri və yaxınlarının iştirak etdiyi mərasimdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər kapitan Sənan Kərimovun xidmət yolundan, döyüşlərdə göstərdiyi igidliklərindən danışaraq şəhidimizlə bağlı xatirələrini bölüşüblər, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun Vətən müharibəsində qazandığı tarixi qələbədən, bu şanlı Zəfərin qazanılmasında igid oğullarımızın göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Anım mərasimi çərçivəsində şəhid kapitan S.Kərimovun Şəhidlər xiyabanındakı məzarı ziyarət olunub, üzərinə gül düzülüb, ruhuna dualar oxunub, xatirə fotosu çəkdirilib.



# 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar anım tədbirləri keçirilib







Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunda 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimlərdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də soyqırımı qurbanlarının xatirələri bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qeyd olunub ki, 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri tərəfindən azərbaycanlılar kütləvi şəkildə vəhşicəsinə qətlə yetirilib.

Ulu Öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Fərmanı ilə hər il martın 31-də Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd olunduğu diqqətə çatdırılıb.

Tədbirlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, eləcə də Heydər Əliyev Fondunun ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı dəhşətlərinin dünyaya tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlərin əhəmiyyəti xüsusi vurğulanıb.

Anım tədbirlərində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin hazırladığı ədəbi-bədii kompozisiyalar təqdim olunub, fotosərgilər, sənədli filmlər nümayiş etdirilib, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub.

Hərbi qulluqçular tərəfindən soyqırımı qurbanlarının abidələri, eləcə də torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının məzarları ziyarət olunub.

# "Bu, bizim milli yaddaşımızın bir hissəsidir"



(Əvvəli 1-ci səhifədə)

Direktor kompleksin yaranma tarixi, burada sərgilənən soyqırımı hadisələrini əks etdirən sənədlər və fotoşəkillər, ekspozisiyalar barədə ətraflı məlumat verdi: "1918-ci ildə erməni silahlı dəstələri Bakı, Quba, Şamaxı, Lənkəran və digər bölgələrdə soyqırımı həyata keçirib. 16 müxtəlif millətdən olan dinc əhali amansızlıqla qətlə yetirilib. Qubada aşkar olunan kütləvi məzarlıq bu faciənin bariz sübutlarından biridir. Kompleks Azərbaycan xalqının yaşadığı bu böyük faciəni dünyaya tanıtmaq üçün qurulub. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, Heydər Əliyev Fondu tərəfindən kompleksin inşasına başlanıldı. 2013-cü ildə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə kompleksin açılışı baş tutdu. Hazırda kompleksdə dörd dildə (Azərbaycan, rus, ingilis, ərəb) bələdçilik fəaliyyət göstərir. Həmçinin 10-12 dildə bukletlərimiz və səsli məlumat xidmətimiz də vardır ki, onlar gələn ziyarətçilərə təqdim olunur. Ziyarətçilər soyqırımı qurbanlarının qalıqlarının saxlandığı məzarlıqla yanaşı, arxiv sənədləri, fotoşəkillər və həmin dövrə aid materiallarla tanış ola bilərlər. Kompleksdə nümayiş etdirilən məlumatlar təkcə Azərbaycan mənbələrinə deyil, eyni zamanda, xarici arxivlərdə saxlanılan tarixi faktlara da əsaslanır. Hər bir ekspozisiya 1918-ci ildə baş verən hadisələrin dəhşətini göz önünə gətirir. Kütləvi məzarlıqda tapılan insan sümükləri arasında azərbaycanlılarla yanaşı, ləzgi, tat, yəhudi və digər millətlərin nümayəndələrinin də qalıqları aşkarlanıb. Bu da onu göstərir ki, bu soyqırımı təkcə azərbaycanlılara qarşı deyil, bölgədəki müxtəlif etnik qruplara da qarşı yönəlmişdi. Tapılan qalıqlardan aydın olur ki, həlak olanların çoxu körpə uşaq, qadın və qoca olub", - deyə R.Bayramova qeyd etdi.

"Bu, bizim milli yaddaşımızın bir hissəsidir", - deyə direktor söhbətə davam etdi. "Gənc nəsil öz tarixini bilməli və bu hadisələrdən nəticə çıxarmalıdır. Tarixini bilməyən xalq gələcəyini də qura bilməz. Biz çalışırıq ki, məktəblilər və tələbələr üçün buraya ekskursiyalar təşkil edilsin, gənclərimiz real tarixi öz gözləri ilə görsünlər. Kompleksə yalnız yerli deyil, həm də xarici vətəndaşlar, tarixçilər və araşdırmaçılar baş çəkirlər. Artıq bir milyon iki yüz mindən çox ziyarətçimiz olub. Bunun da iki yüz minə yaxını xarici ziyarətçilərin payına düşür. Xüsusilə beynəlxalq media və elmi dairələr bu faciəyə maraq göstərir. Biz də dünya ictimaiyyətinin bu faciə barədə məlumatlı olmasına çalışırıq. Əfsuslar olsun ki, bəzi dövlətlər bu həqiqətləri görməzlikdən gəlirlər. Çalışırıq ki, fəaliyyətimiz təkcə regionda deyil, bütün dünyaya çata bilsin. Bunun üçün də əlimizdən gələni edirik. Qeyd edim ki, bizim maraqlı layihəmiz var. Bu layihədə Quba ilə bağlı iki dildə xəritə hazırlamışıq. Xəritədə təkcə Qubanı deyil, digər yerləri də qeyd etmişik. Bu dəhşətli faciə təkcə insanlara qarşı olmayıb. Bizim tarixi abidələrimiz, məscidlərimiz, inanc yerlərimiz məhv edilib. Xəritədə bunlar barədə qısa məlumatlar qeyd etmişik. Əgər bir ziyarətçi daha ətraflı məlumat əldə etmək istəyirsə, xəritədə ünvanlar da qeyd edilib. Nadir fonddan ibarət kitabxanamız var ki, buradakı kitablar ölkənin çoxsaylı araşdırmaçı və tarixçiləri tərəfindən verilib. Bu kitablar bizim tarixi keçmişimizlə bağlıdır. Milli Ensiklopediya Mərkəzi tərəfindən də komplekse kitablar bağışlanılıb. Bizim borcumuzdur ki, gələn ziyarətçilərə dolğun cavab verib yönləndirə bilək. Kompleks həm də elmi müəssisə olaraq fəaliyyət göstərir. İl ərzində bir çox simpoziumlar, konfranslar, ustad dərsləri keçirilir. 15-ə yaxın yerli və xarici universitetlərlə memorandum əlaqələrimiz var. Bu yaxınlarda qardaş Türkiyənin Ege və İstanbul universitetləri ilə birgə tədbirlərimiz baş tutub. Cari ildə komleksdə iki böyük konfrans, forum baş tutacaq. Artıq elanlarımız verilir, sorğularımız həyata keçirilir. İyunun 5-6-da Gənc Etnoqrafların 1-ci Respublika Forumunun burada keçirilməsi planlaşdırılır. Bu fərqli yanaşma bizim üçün də maraq doğurub. Burada bizim milli geyimlərimiz, adət-ənənələrimiz sərgilənəcək. Müqəddəs yerlərimiz, qəbir abidələrimiz göstəriləcək. Əsas maraqlı məqam isə süni intellektlə bağlı olacaq ki, bu sahə üzrə bilgilərin yerləşdirilməsi və təbliği olacaq. Konfrans çoxsaxəli olacaq. Artıq qeydiyyatdan keçənlər var. Bu bizim üçün olduqca sevindirici haldır. Bu məlumatların paylanılması həm tezis, həm də poster xarakterli olacaq ki, gələn qonaqlar maksimum dərəcədə faydalana bilsinlər. Bir layihəmizin də 2025-ci ilin sentyabrında baş tutması planlaşdırılıb. Biz buna ənənəvi Quba simpoziumu deyirik. İndiyədək iki simpozium keçirilib və xaricdən qonaqlar da dəvət olunublar", - deyə direktor bildirdi.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# XİN 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bəyanat yayıb

Xarici İşlər Nazirliyi (XİN) 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bəyanat yayıb.

Bəyanatda deyilir: "Bu gün, radikal erməni qruplaşmaları tərəfindən ötən əsrdə dinc azərbaycanlılara qarşı törədilmiş ən böyük soyqırımlardan biri olan, minlərlə həmvətənimizin etnik və dini zəmində amansızlıqla qətlə yetirildiyi 1918-ci il mart soyqırımından 107 il ötür. 31 Mart - Azərbaycanlıların Soyqırımı Günündə faciəvi hadisələrin günahsız qurbanlarının xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

AZƏRTAC xəbər verir ki, azərbaycanlılara qarşı sistematik etnik təmizləmə və soyqırımı siyasətinin tərkib hissəsi olan bu qırğınlar zamanı Qafqazın Fövqəladə Komissarı, milliyyətcə erməni olan Stepan Şaumyanın özünün də etiraf etdiyi kimi Bakı Sovetinin 6 min və "Daşnaksutyun" partiyasının 4 min silahlı əsgəri tərəfindən planlı şəkildə "əksinqilabçılarla mübarizə" adı altında bir sıra, o cümlədən Bakı, Şamaxı, Quba, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan bölgələrində dinc azərbaycanlıların xüsusi amansızlıqla qətli həyata keçirilib. Kütləvi qırğınlar nəticəsində, təkcə Qubada xüsusi qəddarlıqla 16 mindən artıq insan qətlə yetirilib, 167 kənd məhv edilib.

On minlərlə həmvətənimizin qətlə yetirildiyi bu qətliam zamanı azərbaycanlılara aid olan mədəni, dini abidələr, məscid və qəbiristanlıqlara qarşı törədilən vəhşiliklər baş verənlərin etnik nifrət və dözümsüzlük cinayəti olmasının sübutudur.

Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulmasından sonra hadisələrin tədqiqi, habelə dünya ictimaiyyətinə çatdırılması məqsədilə xüsusi təsisatların yaradılmasına, 31 mart tarixinin ümummilli matəm günü kimi qeyd edilməsinə baxmayaraq, Cümhuriyyətin süqutu bu cinayətə siyasi-hüquqi qiymətin verilməsinə mane olub.

Müstəqilliyimizin bərpasından və Ulu Öndər Heydər Əliyevin ölkəmizdə hakimiyyətə qayıtmasından sonra 26 mart 1998-ci il tarixində imzalanmış "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla baş verənlərə siyasi qiymət verilib.

XX əsrin əvvəlində törədilən qırğınların əsasında duran etnik nifrət və dözümsüzlük siyasəti əsrin sonunda azərbaycanlıların indiki Ermənistan ərazilərindən kütləvi deportasiyası, münaqişə və işğal dövründə xalqımıza qarşı törədilən qətliamlar, Xocalı soyqırımı kimi insanlıq əleyhinə cinayətlər, habelə 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı dinc insanlara qarşı müharibə cinayətləri ilə davam etdirilib.

Hazırkı postmünaqişə dövründə bölgənin tarixinə düşən bu qanlı səhifələrin birdəfəlik çevrilməsi, dayanıqlı və dönməz sülhün bərqərar edilməsi üçün tarixi imkanların mövcudluğuna baxmayaraq, bu günədək baş verən bütün dəhşətlərin əsasında dayanan və Ermənistan konstitusiyası daxil olmaqla, bir sıra qanunvericilik aktlarında təsbit olunan ərazi iddialarının hələ də qalmaqda davam etməsi regionun sabit gələcəyi üçün ən böyük əngəl və narahatlıq mənbəyidir.

Bu baxımdan, Azərbaycan törədilən cinayətlərin günahkarlarının hüquqi məsuliyyətə cəlb edilməsi üçün milli və beynəlxalq səylərini davam etdirməklə yanaşı, bölgədə dayanıqlı sülhün qurulması üçün Ermənistanın ölkəmizə qarşı davam edən ərazi iddialarına son qoyulması tələbində qəti və dönməzdir.

31 Mart - Azərbaycanlıların Soyqırımı Günündə etnik nifrət və soyqırımına məruz qalan günahsız azərbaycanlıların əziz xatirəsini dərin hüzn və ehtiramla yad edirik. Allah rəhmət eləsin!"

*Tarix yazan oğullar*

# Vətən üçün can vermək əbədi yaşamaqdır

Valideyn üçün ən böyük itki övlad itkisi olsa da, şəhadət mərtəbəsinə yüksələn şəhidlərimizin doğmaları onların dəfn mərasimində bir ağızdan "Vətən sağ olsun!" deyirlər. Çünki Vətən - Ana, Ana isə Vətəndir. Hər ikisini sevmək, qorumaq, yeri gələrsə, uğrunda canından keçmək gərəkdir. Vətən sevgisi beşikdə ana laylasından başlayır. Kiçik yaşdan Ana və Vətən anlayışını dərk edən, ömrünü bu ümdə anlayışlara həsr edən övlad ən dəyərlidir. Şəhidlik igidlik və cəsarət nümunəsidir.

Müstəqilliyimizin bərpasının ilk dövründən bu günümüzə qədər ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda minlərlə övladımız öz şirin canından keçərək şəhidlik zirvəsinə yüksəlib. Onların hər biri tariximizin keşməkeşli dövr səhifələrinə öz adlarını qızıl hərflərlə yazmağı bacarıb.

2020-ci il sentyabrın 27-də başlayan haqq savaşımız 44 gün davam etdi. Hər günü əsrə bərabər olan İkinci Qarabağ müharibəsi tarixdə təkcə Böyük Qələbənin yazıldığı gün kimi deyil, şəhidlərimizin qisasının alındığı gün kimi də tarixləşdi. Misilsiz birlik, müqayisəyəgəlməz cəsarətdən yaranan Dəmir Yumruq xalqımızın iradəsinin ifadəsi oldu. Əməliyyatlar zamanı şanlı ordumuz durmadan irəliləyirdi. Bir sözlə, qalib ordu hər gün Zəfərə doğru addımlayırdı.

Tarixi Zəfəri bizə öz qanı və canı ilə yaşadan oğullarımızdan biri də mayor Elsevər Vaqif oğlu Paşayevdir. Elsevər 1988-ci il iyulun 1-də Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olub. 1994-2003-cü illərdə Beyləqan rayonunun Milabad kənd tam orta məktəbində təhsil alıb. O, 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 2006-2010-cu illərdə indiki Heydər Əliyev adına Hərbi İnstitutu bitirdikdən sonra ordu sıralarında xidmətə yollanıb. Hərbi xidməti dövründə müxtəlif hərbi hissələrdə taqım komandiri vəzifəsindən qərargah rəisi vəzifəsinə qədər yüksəlib. Şəhid Elsevər Paşayev xidməti müddətində Bolqarıstan, Çexiya, İngiltərə, Almaniya, Türkiyə, Əfqanıstan və digər ölkələrdə keçirilən müvafiq kurslarda iştirak edib. Xidmət etdiyi hərbi hissələrdə rəhbərlik tərəfindən fəxri fərman və müxtəlif hədiyyələrlə mükafatlandırılıb.

Hələ uşaq yaşlarında öz doğma yurdundan didərgin düşən Elsevərin uşaqlıq arzusu olan Cəbrayılı azad görmək istəyi isə 27 il sonra həyata keçdi. Uşaqlıqdan hərbçi olmağı qarşısına məqsəd qoyan Elsevər İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın da bir neçə yaşayış məntəqəsinin işğaldan azad olunması əməliyyatlarında iştirak etdi. 44 günlük müharibədə doğma yurdu ilə yanaşı, Füzuli və Qubadlı istiqamətlərində də qarşıya qoyulan döyüş tapşırıqlarının yerinə yetirilməsində mayor Elsevər Paşayev əsl komandirlik nümunəsini qazanan hərbi qulluqçulardan biri olaraq şəxsi heyəti üçün iştirakçı örnək olmağı bacardı. Təəssüf ki, çoxdan arzuladığı doğma yurdu - Cəbrayılı azad olunmasında iştirak edə bilsə də, Böyük Qələbəyə həsr olunan Zəfər paradında iştirak edə bilmədi. O, 2020-ci il oktyabrın 20-də Qubadlı rayonu istiqamətində döyüş tapşırığının icrası zamanı piyada əleyhinə minaya düşdü. Döyüş meydanından tibb müəssisəsinə təxliyə olunan igid zabitimiz 5 gün sonra şəhidlik zirvəsinə yüksəldi.



***Şəhidlik dini və milli-mənəvi baxımdan böyük dəyər daşıyan anlayışdır. Müqəddəs dinimizdə şəhidlik haqq uğrunda, Vətən naminə canını fəda edərək ən ali məqama ucalmaqdır. Şəhidlik sadəcə ölüm deyil, şücaət fədakarlıq, əbədilik, ölməzlik və yüksək ehtiram simvoludur. Bunun üçün də şəhidlərimiz heç vaxt unudulmurlar. Onlar hər zaman ən ali və mötəbər ehtiram sahibləridir.***

Şəhid Elsevər Paşayev İkinci Fəxri xiyabanda dəfn olunub. Ailəli idi, onun Vətənə və xalqa əmanət 2 qızı yadigar qalıb. Mayor Elsevər Paşayev İkinci Qarabağ müharibəsi zamanı göstərdiyi igidliyə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Qəhrəman zabitimizin İkinci Qarabağ müharibəsi zamanı göstərdiyi igidliyi döyüş yoldaşlarından öyrəndik.

Baş leytenant Sənan Əsədov təcrübəli komandiri olan Elsevər Paşayevi hələ kursant olduğu dövrdən tanıdığını qeyd etdi: "Mayor Paşayevi 2018-ci ildə dördüncü kursun kursantı olanda xidmət etdiyim hərbi hissədə tanımışam. O zaman bölmə komandiri kimi kapitan rütbəsində olan Elsevər Paşayev gələcəyin zabitləri olacaq biz kursantlara hər zaman öz tövsiyə və məsləhətlərini verirdi, təcrübəli komandir olmağın tələb və göstəricilərinin xırdalıqlarını izah edirdi. Əslən Cəbrayıldan olduğum üçün məni öz davamçısı kimi gördüyünü qeyd edən unudulmaz komandirim mənimlə tez-tez telefonda danışır, qayğı və problemlərimlə maraqlanırdı. 2019-cu ildə zabit olaraq xidmətə başladığım dövrdən münasibətimiz daha da möhkəmləndi. Elsevər Paşayev fiziki hazırlığına da xüsusi önəm verirdi. Onun nə qədər mərd, Vətəninə, xalqına bağlı biri olduğunu xidmət müddətimdə daha yaxından öyrəndim. Vətən müharibəsi zamanı əvvəlcə vəzifəsinə uyğun olaraq bölmələrə təminat və təchizat vasitələrinin çatdırılmasında yaxından iştirak edirdi. Sonra Elsevər Paşayev qərargah rəisi vəzifəsində şəxsi heyətlə birlikdə Cəbrayıl və Qubadlı istiqamətində bir sıra yüksəkliklərin işğaldan azad olunmasında iştirak etdi. Xələfli kəndi azad edildikdən sonra bölməmizin istiqaməti Cəbrayılın Dağ Tumas kəndi idi. Həmin istiqamət üzrə irəliləyərkən Qalacıq kəndi istiqamətindən düşmən qüvvələri ilə aramızda toqquşma baş verdi. Bölməmizin şəxsi heyəti düşməni məhv etdikdən sonra Hovuslu kəndinə doğru hərəkət etdik. Bölməmizə rəhbərlik edən Elsevər Paşayevlə birlikdə istiqamət Qubadlıya doğru idi. Muradxanlı istiqamətində irəliləyərkən burada körpünün düşmən tərəfindən partladıldığının şahidi olduq. Elsevər Paşayev və digər bir hərbi qulluqçumuzun düşmənin basdırdığı piyada əleyhinə minaya düşdüyü xəbəri rabitə ilə bizə ötürüldü. Həmin yerdə olmadığımızdan xəsarətin dərəcəsini tam təyin edə bilmədik və ümid edirdik ki, komandirimiz yanımıza qayıdacaq. Lakin o, bir daha geri qayıtmadı və yaralandıqdan 5 gün sonra elə xəstəxanada şəhidlik zirvəsinə yüksəldi. Hər birimizin xatirində təcrübəli zabit, dəyərli silahdaş və səmimi yoldaş olaraq qalan Elsevər Paşayev cismən yanımızda olmasa da, onun öyrətdikləri bu gün də yaddaşımdadır və sevinirəm ki, mənə hərbin sirlərini aşılayan belə savadlı komandirim olub".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Fariz Əhmədov mayor Elsevər Paşayevlə ilk tanışlığının 2019-cu ildə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası zamanı olduğunu bildirdi: "Mayor Elsevər Paşayev ilə altı ay birlikdə xidmət etmişik. Fəaliyyət istiqamətlərimiz fərqli nöqtələr olsa da, mayor Paşayevlə tapşırığımız başa çatdıqdan sonra idman saatlarında vaxtaşırı görüşürdük. Futbol oynamağı çox sevərdi və çalışardı ki, azərbaycanlılardan ibarət olan komanda ilə rəqibə qarşı mübarizə aparsın. Çox vaxt bizim komanda qalib gələrdi və mayor Elsevər Paşayev qələbənin açarının "möhkəm birlik və sarsılmaz əzm"də olduğunu bildirərdi. Bundan əlavə, ölkəmizin mötəbər təqvim günləri və bayramlarla bağlı missiya iştirakçılarına məlumatlar verər, onları maraqlandıran sualları cavablandırardı. Xarici ölkədən olan nümayəndələrə Azərbaycanın işğala məruz qalması, apardığı haqq mübarizəsi ilə bağlı həqiqətləri çatdırardı. O, xalqına bağlı olduğunu, vətənpərvərliyini öz əməyi ilə təsdiq edirdi. Əfqanıstandan qayıtdıqdan sonra fərqli bölmələrdə xidmətimizi davam etdirdik. 2020-ci ilin 27 sentyabrında başlayan haqq savaşımızda ilk fəaliyyətimiz Füzulidə başlasa da, ağır döyüşlər zamanı Cəbrayıl rayonunun məşhur "Dostluq bulağı" yaxınlığında düşmənin ağır artilleriya atəşinə məruz qaldıq. Mayor Paşayev həmin intensiv artilleriya mərmilərinin atəşi altında bölmələrin təminat və təchizat vasitələrinin çatdırılmasına nəzarət edirdi. Üzərindən az zaman keçdikdən sonra o zaman kapitan olan Elsevər Paşayevi bizim bölməyə yuxarı vəzifəyə təyin etdilər. Bu hadisə onu tanıyan hər kəsi çox sevindirdi. Əslən Cəbrayıldan olan Elsevər Paşayevin öz ata yurdunu işğaldan azad edilməsi üçün göstərdiyi şücaəti sözlə ifadə etmək çətindir. İrəlilədikcə onun üzündəki sevinc, fərəh daha dərindən hiss olunurdu. İgid komandirlə mənim yolum Dağ Tumas kəndi istiqamətindən ayrıldı. Həkəri çayı üzərində yerləşən Bala Soltanlı kəndindən sonra bölməmiz artıq 3 hissəyə bölünərək, həmin istiqamətlərdə irəliləməyə başladı. Və biz bir müddət irəlilədikdən sonra rabitə ilə məlumat verildi ki, mayor Paşayev piyada əleyhinə minaya düşüb. Bu xəbər hər kəsi sarsıtsa da, düşmənə olan qisas hissimizi daha da artırdı. Növbəti tapşırıqların birindən qayıtdıqda mayor Elsevər Paşayevin şəhidlik məqamına yüksəldiyinin xəbərini aldıq. Bəli, şəhidlik uca zirvədir, hər kəsə nəsib olmur. Amma onun kimi Vətəninə, xalqına bağlı bir komandiri itirdiyimiz üçün çox məyus olduq. Hər birimiz bu tarixin bir parçası olduğumuz üçün qürur duyuruq, mayor Paşayev kimi təcrübəli komandirin rəhbərliyi ilə haqq savaşında iştirak etmək qürurumuzu daha da artırırdı".

Sonuncu müsahibim baş gizir Qafar Bahadurov bildirdi ki, şəhid Elsevər Paşayev istər təminat vəzifəsində, istərsə də komandir vəzifəsində üzərinə düşən tapşırıqların öhdəsindən layiqincə gəlirdi. "Horadiz istiqamətindən başlayan fəaliyyətimiz Cəbrayılın Şeybəy, Daşkəsən, Çərəkən kəndlərindən keçərək davam etdi. Bölməmiz "Dostluq bulağı" adlanan ərazidə düşmən tərəfindən ciddi müqavimətlə üzləşdi. Mən o zaman kapitan rütbəsində olan Elsevər Paşayev ilə birlikdə təminat təyinatlı tapşırıqların icrasında iştirak edirdim. Kapitan Paşayev döyüşən heyətin döyüş və gündəlik ehtiyacları ilə maraqlanar, onların qayğı və problemlərini soruşar, həlli istiqamətində zəruri addımlar atar, ya da dərhal yuxarı komandanlıq qarşısında vəsatət qaldırardı. Mayor Paşayev tabor komandiri vəzifəsini icra edərkən onun planlaşdırma, analiz və qərar qəbuletmə bacarıqlarının yüksək olduğu hiss olunurdu. Döyüşün ən çətin anlarında belə şəxsi heyətin ruh yüksəkliyini artırardı, hərbi qulluqçularda özünəinam hissinin ən vacib amillərdən biri olduğunu diqqətə çatdırardı. Bunun nəticəsi idi ki, bölməmiz onun komandirliyi dövründə yüksək nəticələr əldə etdi. Bir komandir olaraq ürəkli, cəsarətli, bacarıqlı keyfiyyətləri özündə birləşdirən mayor Paşayev "hər gün qələbəyə daha da yaxınlaşırıq", - deyərək hər kəsi öz ardınca aparırdı. Əslində, komandirdən qabaq o, bizə qardaş, dost və doğma biri idi. Çünki onunla ilk tanış olan şəxs belə özünü yad hiss etmirdi. Tez ünsiyyət quran, geniş dünyagörüşünə malik təcrübəli hərbçi kimi yuxarı komandanlıqdan sıravi əsgərə qədər hər kəsin ürəyinə yol tapmağı bacarmış biri idi şəhid Elsevər Paşayev.

Yoldaşlarım ilə söhbətimizdə hər zaman onu xatırlayırıq. Komandirimiz hər zaman əlini çiynimizə qoyub "hər şey yaxşı olacaq" deyirdi. Artıq hər şey yaxşıdır, lakin o yoxdur. Bu gün yolum Cəbrayıldan keçəndə orada Elsevər Paşayevin tabeliyində olan şəxsi heyətin göstərdiyi fədakarlıq və cəsarət dolu yürüşü gözümün önünə gəlir. Bu gün azad edilmiş torpaqlarımız yenidən qurulur, kəndlərimiz bərpa edilir, ailələrimiz öz ata-baba ocaqlarına geri dönürlər. Bu tarixi bizə öz canını fəda edərək yaşadan mayor Elsevər Paşayevin timsalında bütün şəhidlərimizin ruhları qarşısında baş əyir, onların doğmalarına Allahdan səbir diləyirəm. Biz bu tarixin bir parçası olduğumuz üçün xoşbəxtik. Xoşbəxtik ki, bu tarixin həm şahidi, həm də iştirakçılarıyıq".

Sonda həm yazının müəllifi, həm də şəhid mayor Elsevər Paşayevin kurs yoldaşı olaraq demək istərdim ki, 5 yaşından öz ata-baba yurdundan məcburi köçkün düşsə də, uşaq yaşlarından qarşısına qoyduğu məqsədə öz canı və qanı bahasına nail olmağı bacardı Şəhidimiz... Bu gün doğma yurdun Cəbrayılın və Cəbrayıl kimi işğalda olan tarixi torpaqlarımızın hamısı sənin və sənin kimi igidlərimizin sayəsində azaddır. Cəbrayılda qürurla dalğalanan üçrəngli bayrağımız artıq işğaldan azad olunmuş torpaqlarımızın hər bir güşəsində dalğalanır. Qədirbilən xalqımızın tarixini elə qədirbilən oğullar öz qanlarıyla yazıblar. Əbəs yerə deyilmir ki, Vətən üçün can vermək əbədi yaşamaqdır. Əbədiyyətin ünvanına, şəhidlik məqamına yüksələn Vətən övladları bu xalqın ən unudulmaz insanlarıdır! Bu xalq sizi unutmayacaq, ən yüksək ehtiramla daim xatırlayacaq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**



*Maraq dünyamız*

# Çaylar haqqında maraqlı faktlar



Çay sudur, su isə həyatdır. Doğru deyiblər ki, susuz həyat yoxdur. Çay qidadır, ticarətdir və ümumiyyətlə, sözün əsl mənasında, "sivilizasiyanın inkişafı"dır. Çaylar təbiətin formalaşmasında, həmçinin canlı aləmin inkişafında əvəzsiz rol oynayır.

Çaylar haqqında bəzi maraqlı faktları təqdim edirik.

- Dünyada ümumiyyətlə çayları olmayan 17 ölkə var.
- Amazon çayı üzərindən keçən "ilk körpü" yalnız 2010-cu ildə açılıb.
- Amazonun altında təxminən 4 kilometr dərinlikdə yerləşən yeraltı çayın mövcudluğuna dair sübutlar var. Uzunluğu Amazon çayı qədərdir - 6000 kilometr. Lakin bir neçə yüz dəfə daha genişdir. Bu çay Həmzə (Rio Həmzə) adlanır.
- Dünyanın ən çirkli çayı Tsitarum (Citarum) çayıdır. İndoneziyanın paytaxtı Cakarta şəhəri yaxınlığında yerləşir. Bütün çay hövzəsinin tədricən çirklənməsi aqressiv insan fəaliyyətinin nəticəsidir. Avstraliyada da ən çirkli çay var və onun adı Kral çayıdır. Çirklənməsinə səbəb əsasən kimya sənayesidir.
- Hər il Taylandda Mekonq çayının səthindən səmaya alov topları yüksəlir. Bu toplar Naqa atəş topları kimi tanınır. Mütəxəssislərin fikrincə, buna səbəb suyun dibində yığılan metan qazıdır.
- ABŞ-ın ən qədim çayı əslində "Yeni Çay" adlanır. Bəzi alimlər hesab edirlər ki, bu, yaşı Nil çayının yaşından çox olan yeganə çaydır.
- Hər il, üç həftə ərzində hər gün, tam Ay Amazonda böyük gəlgit dalğasına səbəb olur. Bu təbii fenomenə görə dünyanın ən uzun dalğaları yaranır.
- Keçmiş zamanlarda Monqollar dağıtmaq istədikləri şəhərin əhalisini məhv etmək üçün bütün çayların məcrasını dəyişirdilər.
- Cənubi Koreyadakı İmjin çayı aşağı axınla apardığı çoxlu sayda Şimali Koreyalıların cəsədlərinə görə "Ölülər çayı" ləqəbini alıb.
- Amazonda 7 ən böyük çayın birləşməsindən daha çox su var.
- Ohayo ştatındakı Cuyahoga çayı həddindən artıq çirklənmiş çay hesab olunur.
- Tarixin ən bahalı fotoşəkili Reyn çayının fotoşəkili olub - "Rhein II" adı ilə. O, hərracda 4 milyon dollardan çox qiymətə satılıb.
- Almaniyada Elba çayı üzərində su körpüsü var. Bu, gəmilərin çayı keçməsinə imkan verir.
- Sloveniyalı Martin Strel Missisipi, Amazon, Dunay və Yantszı kimi çayların bütün axarı boyunca üzməyi bacarıb.
- Dünyada "Don" adlı 6 çay var.
- Nijni Novqorod vilayətindən axan Piana çayı dünyanın ən dolama çayı hesab olunur.
- Huanhe çayı həm də "Sarı çay" adlanır, çünki o, dünyada mövcud olan bütün su hövzələri arasında ən palçıqlısıdır.
- Dunay çayı Avropanın ən uzun çayı fəxri adını daşıyır. Bu çay Avropanın 10 dövlətinin ərazisindən keçir.
- Amazon çayının 500-dən çox qolu var.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Böyük Britaniya ABŞ-dan əlavə F-35 qırıcıları alacaq



Böyük Britaniya Avropa müttəfiqlərinin Vaşinqtondan həddindən artıq müdafiə asılılığı ilə bağlı narahatlıqlarına baxmayaraq, əlavə olaraq ABŞ-dan F-35 qırıcıları alacaq.

Bu barədə "The Times" qəzeti mənbələrə istinadla məlumat yayıb.

London bundan əvvəl Kral Donanmasının iki təyyarədaşıyan gəmisi üçün 48 ədəd F-35B qırıcısı sifariş etmişdi. Onlardan 37-si artıq alınıb. Nəşrin məlumatına görə, Britaniya hakimiyyəti indi ölkənin hərbi büdcəsinin artması fonunda klassik F-35A-ların alınması imkanını nəzərdən keçirir.

Qırıcıların birincisi 20 ildən çox istifadəyə verilmiş "Eurofighter Typhoon"u qismən əvəz edəcəyi gözlənilir.

Böyük Britaniya F-35-in komponentlərinin təxminən 15 faizini istehsal edir. "The Times"ın mənbələri hesab edir ki, Böyük Britaniya Amerika qırıcılarına keçdikdən sonra mühəndislik bacarıqlarını itirməyəcək, çünki ölkə ixrac üçün "Eurofighter Typhoon" istehsalını davam etdirəcək.

## Media: Myanmada zəlzələ nəticəsində ölənlərin sayı 2 min 700 nəfəri ötüb



Myanmada güclü zəlzələ nəticəsində ölənlərin sayı 2 min 700 nəfəri ötüb.

Çinin Mərkəzi Televiziyası bu barədə axtarış-xilasetmə əməliyyatlarının saytına istinadla məlumat yayıb. Məlumata görə, indiyədək dağıntıların altından 2 min 719 cəsəd çıxarılıb.

Çinin Myanmadakı səfirliyi zəlzələ nəticəsində azı üç vətəndaşının öldüyünü, 14 nəfərin isə yaralandığını təsdiqləyib.

ÇXR Sədri Si Cinpin zəlzələnin nəticələrinin aradan qaldırılmasını dəstəkləməyə və təbii fəlakətdən zərər çəkən sakinlərə yardım göstərməyə hazır olduğunu bildirib. Pekin, həmçinin qonşu ölkəyə 100 milyon yuan (13,8 milyon dollar) həcmində humanitar yardım ayıracağını vəd edib.

## NATO ölkələri genişmiqyaslı hava qüvvələri təlimləri keçirir



NATO-ya üzv ölkələr bazar ertəsi genişmiqyaslı hərbi hava qüvvələrinin "Ramstein Flag 2025" təlimlərinə başlayıb.

Aprelin 11-dək davam edəcək təlimlərdə NATO-nun 15 ölkəsindən 90 hərbi təyyarə iştirak edir. Uçuşların həyata keçirilməsi üçün NATO-nun Avropadakı 12 aviabazasından istifadə olunacaq. Əməliyyatlar Niderlanddakı Leuvarden Hava Bazasından idarə olunacaq.

ABŞ Hərbi Hava Qüvvələrinin Avropadakı Komandanlığına görə, təlim döyüş qabiliyyətini, inteqrasiya olunmuş hava və raketdən müdafiəni hazırlamaq və nümayiş etdirmək üçün nəzərdə tutulub. Manevrlər, xüsusən, NATO qüvvələrinin kollektiv müdafiə ilə bağlı 5-ci maddəyə əsasən yerləşdirildiyi halda, dərin eşelonlaşdırılmış hava hücumundan müdafiə sisteminə qarşı hərəkətlərin simulyasiyasını əhatə edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Bakıda keçirilən "AGF Trophy" turnirinə yekun vurulub



Bakıda keçirilən "AGF Trophy" beynəlxalq turnirinə yekun vurulub. Son olaraq Azərbaycanın daha iki gimnastı fəxri kürsüyə qalxıb.

Bədii gimnastika üzrə böyüklərdən ibarət milli komandanın üzvlərindən Kamilla Seyidzadə top proqramında gümüş, Zöhrə Cəfərova lentlərlə hərəkətlərin icrasında bürünc mükafata layiq görülüb.

Bu nəticədən sonra Azərbaycan təmsilçiləri medallarının sayını 14-ə çatdırıb.

Qeyd edək ki, üç gün davam edən yarışda ümumilikdə 16 ölkədən 68 fərdi gimnast və 14 qrup hərəkətləri komandası iştirak edib.

## Azərbaycan Gimnaziadada 192 idmançı ilə təmsil olunacaq



Serbiyada ISF U-15 Gimnaziada İdman Oyunları keçiriləcək.

Yarışda ölkəmiz 18 idman növündə - idman gimnastikası (Novi-Sad), kamandan oxatma, 3x3 basketbol, çimərlik voleybolu, boks, şahmat, tennis (Zlatibor), badminton, parabadminton, üzgüçülük, paraüzgüçülük, stolüstü tennis (Ujiçe), taekvondo, karate (Pojeqa), cüdo, güləş (Luçani), qılıncoynatma (Nova-Varoş), atletika (Priboy) üzrə ümumilikdə 192 idmançı ilə təmsil olunacaq.

Yarışlar aprelin 4-dən 14-dək davam edəcək. Oyunların açılış mərasimi aprelin 5-də, bağlanışı isə 12-də Zlatibor şəhərində təşkil olunacaq.

## Azərbaycan millisinin voleybolçuları Rumıniya Kubokunun qalibi olublar



Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin üzvləri Yelizaveta Ruban və Olena Xarçenko, kişilərdən ibarət yığmanın hücumçusu Andrey Melnikov Rumıniya Kubokunun qalibi olublar.

Y.Ruban ilə O.Xarçenko "Alba Blaj"ın qadın, A.Melnikov isə "Korona Brasov"un kişi komandasının heyətində ölkə kubokuna sahib çıxıblar.

Final matçında "Alba Blaj" "Voluntari"ni, "Korona Brasov" isə "Munisipal Zalau"nu 3:1 hesabı ilə məğlub edib.

## Azərbaycanın fiqurlu konkisürəni Qış Olimpiya Oyunlarına lisenziya qazanıb



Azərbaycanın fiqurlu konkisürəni Vladimir Litvintsev 2026-cı ildə İtaliyada keçiriləcək Qış Olimpiya Oyunlarına lisenziya qazanıb.

O, bu uğura ABŞ-ın Boston şəhərində təşkil olunan fiqurlu konkisürmə üzrə dünya çempionatında nail olub.

İdmançımız qısa və sərbəst proqramda 233,31 xal toplayıb və 39 idmançı arasında 15-ci yeri tutaraq Olimpiadada iştirak hüququ əldə edib.

Yarışda çıxış edən Azərbaycanın digər təmsilçiləri Nərgiz Süleymanova və buz üstündə rəqs idman növü üzrə yarışan cütlük Samanta Ritter və Daniel Brikalov isə qısa proqramda rəqiblərindən geri qalaraq növbəti mərhələyə vəsiqə qazana bilməyiblər.

Qeyd edək ki, Qış Olimpiya Oyunları 2026-cı il fevralın 6-dan 26-dək İtaliyanın Milan və Kortina d'Ampetso şəhərlərində keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**


| Redaktor | Telefonlar | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | baş leytenant Elçin İMANOV | Lisenziya № 361<br>Sifariş № 108<br>Nüsxə 3663 |